*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 28 noyabr 2018-ci il | № 92 (2308) | Qiyməti 25 qəpik


## Azərbaycan Prezidenti müddətli həqiqi hərbi xidmətə çağırışla bağlı Sərəncam imzalayıb

*Prezident İlham Əliyev noyabrın 26-da Azərbaycan Respublikası vətəndaşlarının 2019-cu il yanvarın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında Sərəncam imzalayıb.*

AZƏRTAC xəbər verir ki, Sərəncama əsasən, 2001-ci ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1984-2000-ci illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan vətəndaşları 2019-cu il yanvarın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılacaqlar.

Həmçinin "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2019-cu il yanvarın 1-dən 30-dək ehtiyata buraxılacaqlar.

## Azərbaycan Avropa hüquq sisteminin ayrılmaz bir hissəsinə çevrilib

Noyabrın 26-da Milli Məclisin hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli ölkəmizdə səfərdə olan Avropa Parlamentinin Terrorizm üzrə Xüsusi Komitəsinin sədr müavini Ceffri Van Orden ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə komitə sədri Əli Hüseynli Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın yüksək sürətlə inkişaf etdiyini bildirib. Qeyd edib ki, Azərbaycan Avropa İttifaqı və quruma üzv ölkələrlə əlaqələrə xüsusi önəm verir.

Azərbaycanın Avropa hüquq sisteminin ayrılmaz bir hissəsinə çevrildiyini qeyd edən komitə sədri son illər ölkəmizin qazandığı nailiyyətlər barədə məlumat verib.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən danışan Əli Hüseynli qeyd edib ki, Azərbaycan torpaqlarının işğalı nəticəsində 1 milyondan çox insan qaçqın və məcburi köçkünə çevrilib. Aparıcı beynəlxalq təşkilatlar Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisindən çıxarılmasını tələb edən qətnamələr qəbul ediblər. BMT Təhlükəsizlik Şurası tərəfindən Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnamə qəbul olunub. "Lakin təəssüflər olsun ki, bu sənədlər hələ də icra olunmur. Bu məsələyə Avropa İttifaqı və digər beynəlxalq qurumlar səssiz qalmamalıdır", - deyə komitə sədri vurğulayıb.

*Ön xətdə düşüncələr*

# Səngərdən Qələbəyə gedən yol da Vətəndi!



"Anadır hər kişiyə öz Vətəni", - Abbas Səhət belə deyib. Xalqın güvəndiyi əsgər də, ordunun arxalandığı xalq da belə deyir...

Dövlət sərhədləri milli ruh, xəlqi ruh olmayan torpağa necə Vətən deyəsən? "Vətən üçün yaşayaraq illəri, budaqlardan qopardarıq yelləri, axarından çıxardarıq selləri!", - deyən əsgərlərimiz bu ruhu bütün çalarlarıyla yaşadır. Əsgərlərimiz sərhədlərimiz daxilində hər qarış torpağı da, daşı-dağı da, çeşmənibulağı da qoruya-qoruya vətənləşirlər. Vətənləşən əsgər döyüş növbətçiliyi apardığı səngəri Böyük Qələbənin yolları üstə müvəqqəti dayanacaq bilir. Bəzi yolların səngərdə qırılması əsgərlərimizin ürəyini qana döndərir. Əsgərlərimiz o yolları mənzilinə çatdırmağın təşnəsidirlər. "Səngərdən Qələbəyə gedən yol da Vətəndi!", - deyir Azərbaycan əsgəri. Ordumuz ona görə güclüdü, qüdrətlidi. Ordumuz ona görə dünyanın ən güclü orduları sırasındadı...

**(Ardı 2-ci səhifədə)**

AZƏRBAYCAN ORDUSU

# Müdafiə naziri yeni inzibati binanın açılışında iştirak edib



*Noyabrın 23-də Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti əsaslı təmirdən sonra istifadəyə verilən Əsaslı tikinti şöbəsinin inzibati binasının açılışında iştirak ediblər.*

Müdafiə nazirinə məlumat verilib ki, mərkəzləşdirilmiş istilik sistemi, elektrik və su xətləri ilə təchiz edilmiş bina nəzarət, layihə, maliyyə və texniki bölmələr üçün nəzərdə tutulmuş xidməti və digər otaqlardan ibarətdir. Bütün otaqlar mebel və kommunikasiya xətləri ilə təmin olunub.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, binanın açılışından və ərazi ilə tanışlıqdan sonra Müdafiə naziri hərbi qulluqçuların xidməti, sosial-məişət, mənzil istismar və kommunal şəraitlərinin daha da yaxşılaşdırılması ilə bağlı tapşırıqlar verib.



# Səngərdən Qələbəyə gedən yol da Vətəndi!



(Əvvəli 1-ci səhifədə)

Səngərdən o yana yolları ot basıb. Yaxın vaxtlarda ot basmış yollar da Azərbaycan əsgərinin qədəmlərinə səriləcək. Hər səngər o yollardan birinin başlanğıcı olacaq - Azərbaycan əsgəri səngərdən Qələbəyə gedən yolu da cəsarətiylə, qətiyyətiylə, sevgisiylə vətənləşdirəcək. Gözlərini səngərdən Böyük Qələbəyə aparacaq yollardan üzməyən əsgərlərimizin əhatəsindəyəm...

Min illərlə torpağı xalq qoruyub, xalq ordu olub, əli silah tutanlar - əsgər. Xalq məqamında rəncbər olub - torpağı becərib, məqamında əsgər olub - torpağı qoruyub; - bu yol xalqın yoludu. Bu yol ordunun yoludu - dövlətin yoludu, dövlətçiliyin yoludu. Bu yol xalqın yoludursa, ordunun yoludursa, Qələbə yoludu, Böyük Qələbənin yoludu...

Ön xətt mənəvi kamilləri mətinləşdirir, mənəvi kamillərin döyüş əzmini, qələbə ruhunu ovxarlayır; işğal zənciri ovxarlanan qılıncların kəsərinə tab gətirə bilməyəcək, Azərbaycan əsgərinin qılıncı Xətainin qılıncı kəsərindədi. Mənə elə gəlir ki, bu kəsərə inanan şəhidlərin ruhu müharibədə ön xəttin, müharibədən sonra sərhədlərimizin göylərində dolaşır; bu yol şəhidlərimizin ruhunun yoludu...

Ön xəttə aparan yolların hamısı ön xətdən o üzə aparacaq yola qarışacaq, bu yol niyyət yoludu, murad yoludu...

Düşüncələrimin söykəndiyi ön xətdəyəm. Yusifli, Vəzirli, Şirinli, Baloğlanlı, Fəğanlı, Rasimli, Mübarizli, Samidli, Raquflu, Çingizli, ... ayları xatırlayıram; bu yol üçün döyüşdülər, bu yolun sonunu tezləşdirmək üçün döyüşdülər, azərbaycançılıq üçün döyüşdülər, Azərbaycan üçün döyüşdülər. Qələbə günü onların ruhlarıyla salamlaşacağıq - döyüşdə şəhid oldular. Onların arzuladığı yolun başlanğıcında onların amallarıyla bağrıbadaş düşüncələrin cazibəsində tərtərli qazi, Qarabağ müharibəsi əlili Nizami Məmmədovun bir şeirinin bir beytini xatırlayıram:

*Şəhidlərin ruhu haqqı*
*Bu qan yerdə qalmayacaq!..*

Yəni, qisas alınacaq, yəni, torpaqlarımız işğaldan azad ediləcək, yəni bu yolun sonunda Qələbə tonqalları çatılacaq...

Müharibə başlayanda əli silah tutanlar da, ordu da bu yol üçün, bu yola çatmaq üçün döyüşürdü, döyüş əzmini, qələbə ruhunu yaşatmaq üçün döyüşürdü. Onda ordumuz nizami ordu kimi formalaşmamışdı.

Müdafiə Nazirliyinin Sənədli və Tədris Filmləri Kinostudiyasında xidmət edirdim. 1993-cü ilin payızıydı. Mənim senarimlə "Müharibə illərinin uşaqları" sənədli filminin çəkilişlərinin bir hissəsi Tovuzun düşmənin həmlələrindən qətiyyən çəkinməyən qətiyyətli Əlibəyli kəndində aparılacaqdı. Əsən yelin içindən keçib Əlibəyliyə çatmışdıq. Diqqətimizi yolun kənarında hərbi səhra geyimli bir uşaq çəkmişdi. Hərbi mundirə ehtiram kimi dayanmışdıq. Görüşmüşdük. Kəlmələşmişdik. Qürurlanmışdıq - bu yaşda uşaq hərbçidi. Düşünmüşdük - bu yaşda uşaq torpaqlarımızın müdafiəsindədi...

İllər keçib. Nə Yaqubun özünü unutmuşam, nə də dediklərini. Onda Yaqub tay-tuşlarına xitabən "Siz oxuyun. Mənim yolum başqadı..." demişdi. Qələbə yolunu nəzərdə tuturdu Yaqub, Qələbənin əsgəri olmaq istəyirdi. Tay-tuşlarını qınamırdı, qınağını bildirmədən əli silah tutmalıları qınayırdı. Onda ermənilərin həmlələrinin, hücumlarının qarşısını yerli müdafiə batalyonları alırdı, erməni ordusuyla bu batalyonlar və əhali döyüşürdü. Yaqub orduya belə gəlmişdi. İndi belə deyil. İndi Yaqubları orduya inamları əvəzləyir.

İndi ordumuz dünyanın ən güclü ordularından biridi. İndi xalq ordusunun sırasındadı. Aprel döyüşlərində təsdiqləndi ki, xalq ordunun dayağıdı, xalq orduya inanır, güvənir; bu yol inamın, güvəncin yoludu. Bu ordunun yolu, təbii ki, Qələbə yoludu.

Son ezamiyyətdə əsgərlərlə söhbətləşəndə söz sözü çəkmişdi, sözarası Yaqubun dediklərini də xatırlatmışdım. Yumruqları düyünlənən əsgərlərdən biri qətiyyətlə demişdi: Yaqub deyən yol döyüş yoludu, Qələbə yoludu, bizim yolumuzdu. Bu yol bizi Şuşaya aparacaq! Bu yol belə düşüncələrin yoludu...

Bakı İncəsənət Gimnaziyasının 5-ci sinif şagirdi Qalib Əliyevin səngərə - tanımadığı əsgərə yazdığı məktubu komandirin məsləhətiylə əsgər Kənan Əkbərliyə verdim. Kənan məktubu oxuyunca kimsə dillənmədi. Qəribə, üzücü sükutuydu. Kənan məktubu oxudu, bir də oxudu. Qaşları çatıldı. Həyəcanlandığı aydınlığıyla hiss edilirdi. Handan-hana indiyəcən tanımadığı, indi əziz bildiyi məktəblinin səmimiyyətlə yazdığı məktuba cavab yazırdı. Qürurla yazırdı - komandiri onu fərqləndirmişdi. Bu qüruru əsgər Kənan Əkbərlinin timsalında ordumuzun şəxsi heyətinin qüruru bildim. Bu qürurda 2016-cı ilin aprel ovqatı vardı, 2018-ci ilin may ovqatı vardı. Bu ovqatlar Böyük Qələbəyə zəmanət ovqatlarıydı; bu yol qürurun yoludu...

Əsgərlərin əhatəsində 2016-cı ilin aprel döyüşlərini də xatırladıq, Azərbaycan Ordusunun və Bakının azad edilməsinin 100 illiyinə həsr olunmuş paradları da. O Qələbə ruhumuzun Qələbəsi oldu, o Qələbə ordu ilə xalqın birliyinin möhtəşəmliyi kimi, Azərbaycan Ordusunun gücünün, qüdrətinin təsdiqi kimi tarixləşdi. O Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dediyi kimi, dərsliklərə salınmalı Qələbə oldu. O paradlar həm də Azərbaycan əsgərinin döyüş ruhunun, qələbə əzminin təcəssümü kimi izlənildi. Azərbaycan əsgəri Ali Baş Komandanın paradda inamla dediyi bir kəlamı səngərlərdə qırılan yollara düşən işıq bilir. O işıq ruhumuzun işığıdı. Ruhun işığı sərhədsiz olur; sərhədsiz ruhumuzun işığının əsgəri Ali Baş Komandanın əmriylə bu yolların yolluğunu özünə qaytaracaq. Onda Böyük Qələbənin ovqatını yağışdan sonra göyqurşağına tən biləcəyik. Onda çəmənlərimiz bir ayrı gözəlliklə güllənəcək, çeşmələrimiz dilə gəlib dillənəcək: səngərdən Qələbəyə gedən yolu da vətənləşdir, Azərbaycan əsgəri!..

Boyu boyumdan yuxarı olan səngərlərə baxıram... Mənə elə gəlir ki, səngərlərin o üzündə qalan torpaqların əlləri bu səmtə uzalıdı, "Ağrıacılarımın məlhəmini tezləşdirin!", - deyir. Azərbaycan əsgərinin bu kəsilməz harayı eşitdiyinə, bu harayın əsgəri olduğuna zərrəcə şübhəm yoxdu. Səngər düşüncələrim əsgərlərimizin döyüş əzmindən, döyüş əzmindən dikələn qələbə ruhundan rişələnməkdədi. Əlləri bizə sarı uzalı qalmış torpaqlarımızı görüb dərk etdiyim, dərk edib düşündüyüm, düşünüb yaşadığım ovqatı könlümün Qələbə bayrağı bilirəm. O tərəfə - əlləri bizə sarı uzalı torpaqlarımıza bayraqlaşan səngər düşüncələrindən - səngərli düşüncələrdən baxıram. Səngərdən qarşı tərəfə uzanan cığırları ot basıb. Yaxın vaxtlarda Azərbaycan əsgəri bu cığırları da, qarşıdakı səngərləri də çığnayıb keçəcək. Bu, Azərbaycan əsgərinin qalibiyyət yolunun qüdrətidi. Musa Yaqub demişkən, onda "dünyamızın qara daşı göyərəcək". "Göyərən qara daşlar" son nəfəsinə qısılan işğala ölüm hökmü oxuyanlara Dədə Qorqud ruhuyla "Surunuz yerisin, qan-qadanı sovuşdurdunuz!", - deyəcək. Onda illər öncə Əlibəyliyə gedəndə qənşərimizə yüyürən yellərin təmasından titrəşən yarpaqların da, yarpaqları coşquyla titrəşən budaqların da, səsi açılan çeşmələrin də, bulaqların da, ... eyni açılacaq. Murovun, Kəpəzin gözləri sevinc yaşlarına darlıq edəcək, sinəsi boyunca süzülən yaşları Azərbaycan əsgərinin arxasınca atılan aydınlıq suyu biləcəyik. Əsgərlərimizin keçib getdiyi yol - Qələbə yolu ruhu rəvanlara darlıq edəcək, hamı o yolun sonuna - Laçına, Kəlbəcərə, Şuşaya, Ağdama, Füzuliyə, Cəbrayıla, Qubadlıya, Zəngilana can atacaq. Şuşanın dağlarını dumansız görəcəyik, Cıdır düzündə çatılacaq Qələbə tonqallarının şöləsi göy üzünü qarşılayacaq, bir vaxtlar yuxudan Xanın səsinə oyanan təbiət Xanın ruhunun səsinə dikələcək...

Bu yol ruhumuzun yoludu.

Bu yol müqəddəs niyyətin yoludu.

Bu yol Əlilərin, Bəxtiyarların, ..., Zəhraların harayına can atan yoldu...

Bu yol Xocalı faciəsində ürəyi burxulanlara təsəlli yoludu...

Bu yol "Lələtəpə fatehləri"nin yoludu...

Hamımız yol üstəyik. Bu yol Qələbə yoludu, Böyük Qələbənin yoludu. Bu yolun başlanğıcında - səngərdə "Səngərdən Qələbəyə gedən yol da Vətəndi!", - deyən əsgərlərimiz o yoldan qətiyyətlə söz açır. Hər kəlmə döyüş əzminin, Qələbə ruhunun ifadəsi kimi səslənir...

Hamımızın yolu birdi. Bu yol Qələbə yoludu. Bu yol bütün yolların ən gözəli kimi tarix yazacaq. Bu yol tarixi yol olacaq, tarixin yolu olacaq...

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist,**
**fotolar**
**Coşqun CƏFƏROVUNDUR**

# Azərbaycanın Müdafiə naziri Bəhreyn Müdafiə Qüvvələrinin Baş Komandanı ilə görüşüb

*Noyabrın 27-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə işgüzar səfərdə olan Bəhreyn Krallığının Müdafiə Qüvvələrinin Baş Komandanı feldmarşal Şeyx Xəlifə bin Əhməd əl-Xəlifə ilə görüşüb.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, görüşdə regional hərbi-siyasi vəziyyət, hərbi əməkdaşlığın perspektivləri və müdafiə sahəsində digər məsələlər müzakirə edilib.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Azərbaycan Ordusunun nümayəndələri beynəlxalq tədbirlərdə iştirak edir

Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Hərbi Dialoq İclasının protokoluna əsasən, 2019-cu ildə Türkiyədə baş tutacaq "Anadolu Ankası" və "Anadolu Qartalı" təlimlərinin Ankara şəhərində keçirilən planlaşdırma iclasında Azərbaycan Hərbi Hava Qüvvələrinin nümayəndə heyəti iştirak edir.

* * *

Azərbaycan, Türkiyə və Gürcüstan Silahlı Qüvvələri arasında neft və qaz kəmərlərinin mühafizəsi, təcrübə mübadiləsi və qarşılıqlı uyarlığın artırılması məqsədilə Türkiyənin Pınarhisar şəhərində "Eternity-2018" çoxmillətli təlimləri keçirilir.

Kompüter dəstəkli komanda-qərargah təlimi ilk dəfə olaraq, eyni zamanda arazidə və hər üç dövlətin hərbi bölmələrinin cəlb olunması ilə icra edilir.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***27 noyabr 2018-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 22 dəfə pozub.

Ermənistan Respublikası Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Kəngərli, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qərvənd, Qaraxanbəyli, Kürdlər, Horadiz, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Karaçidə "IDEAS-2018" 10-cu Beynəlxalq Müdafiə Sərgisi açılıb

Noyabrın 27-də Pakistanın Karaçi şəhərində "IDEAS-2018" 10-cu Beynəlxalq Müdafiə Sərgisi açılıb.

AZƏRTAC Pakistanın "Dispatch News Desk" (DND) xəbər agentliyinə istinadla xəbər verir ki, noyabrın 30-dək davam edəcək sərgidə dünyanın müxtəlif ölkələrinin 260-dan çox yüksəkvəzifəli nümayəndəsi iştirak edir. Sərgidə müdafiə sənayesi sahəsində ən son texnologiyalar nümayiş etdirilir.

Sərgi çərçivəsində beynəlxalq müdafiə seminarı da təşkil olunacaq.

Qeyd edək ki, Azərbaycanın Müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələri komandanı general-leytenant Ramiz Tahirovun rəhbərlik etdiyi nümayəndə heyəti sərgi və seminarda iştirak etmək üçün Pakistanda səfərdədir.

# "Qondarma rejimin "rəhbəri"nin ATƏT-in Minsk Qrupu həmsədr ölkələrinə səyahəti münaqişə üzrə vəziyyətin gözlənilməz inkişafına gətirib çıxara bilər"

Erməni kütləvi informasiya vasitələrində yer almış məlumata əsasən, Azərbaycan Respublikasının işğal edilmiş ərazilərində yaradılmış qondarma rejimin "rəhbəri" Rusiya Federasiyasına səfər edib. Qanunsuz separatçı rejimin nümayəndəsinin Rusiya Federasiyasının ərazisinə daxil olmasına icazə verilməsi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin danışıqlar yolu ilə həlli prosesinin irəli aparılması səylərinə xələl gətirir və Rusiyanın ATƏT-in Minsk Qrupunun həmsədri qismində vasitəçilik öhdəlikləri ilə ziddiyyət təşkil edir.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycanın Xarici İşlər Nazirliyinin yaydığı açıqlamada bildirilir.

"Qondarma rejimin "rəhbəri"nin ATƏT-in Minsk Qrupu həmsədr ölkələrinə səyahəti münaqişə üzrə vəziyyətin gözlənilməz inkişafına gətirib çıxara bilər. Belə olacağı təqdirdə bütün məsuliyyət Ermənistan tərəfinin üzərinə düşür", - deyə açıqlamada vurğulanır.

# Yeni fərdi yaşayış evləri şəhid ailələrinin və Qarabağ müharibəsi əlillərinin istifadəsinə verilib

Ölkəmizin ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi uğrunda döyüşlərdə şəhid olmuş insanların ailələrinin və bu döyüşlərdə əlil olmuş şəxslərin mənzillə təminatı tədbirləri davam edir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Kürdəmir və Ağsu rayonlarında yeni fərdi yaşayış evləri şəhid ailələrinin və Qarabağ müharibəsi əlillərinin istifadəsinə verilib.

Nazirliyin ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, yeni evlərlə təmin olunan şəhid ailəsi üzvləri Əsnayə Mütəllimova və Gülağa Musayev, Qarabağ müharibəsi əlilləri Habil Rzayev, Anar Əhmədov, Zaur Məmmədov, Teymur Əliyev göstərilən yüksək diqqət və qayğıya, yeni mənzillərlə təmin edildiklərinə görə Prezident İlham Əliyevə dərin minnətdarlıqlarını bildiriblər. Onlar şəhid ailələrinin və Qarabağ müharibəsi əlillərinin sosial rifahının yaxşılaşdırılması, sosial təminatlarının artırılması üçün aparılan işlərdən, eyni zamanda, dövlət başçısının müvafiq Fərmanı ilə şəhid hərbi qulluqçuların vərəsələrinə birdəfəlik ödəmələrin verilməsindən söz açıblar.

Evlərin təqdim olunması zamanı sosial cəhətdən həssas qrupların, o cümlədən şəhid ailələrinin, müharibə əlillərinin etibarlı sosial müdafiə sistemi ilə əhatə olunduqları vurğulanıb, onlara yönələn dövlət qayğısından bəhs edilib.

Bildirilib ki, mühüm sosial proqramlardan biri də Qarabağ müharibəsi əlilləri və şəhid ailələrinin mənzillə təmin edilməsidir və bu istiqamətdə işlər ildən-ilə gücləndirilir. Avqustda Bakının Qaradağ rayonunda daha 35 mənzil şəhid ailələri və Qarabağ müharibəsi əlillərinə verilib.

Ölkə başçısının 2 avqust 2018-ci il tarixli Sərəncamı ilə Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün cari ildə əlavə olaraq minimum 300 mənzilin alınması üçün 20 milyon manat vəsait ayrılıb. Bu da 2018-ci ildə verilməsi nəzərdə tutulan mənzillərin sayının 2,4 dəfə artırılmasına, yəni cari ildə 600-ə yaxın mənzilin həmin insanlara verilməsinə imkan yaradıb.

# Hərbi hissələrdə psixoloji işə dəstək və maarifləndirmə tədbirləri keçirilir



*Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi müvafiq təlimata əsasən, Şəxsi Heyət Baş İdarəsi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsi tərəfindən cəbhəboyu zonada yerləşən hərbi hissələrdə psixoloji işə dəstək və maarifləndirmə tədbirləri aparılır.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, hərbi hissələrin psixoloqları və şəxsi heyətlə iş üzrə zabitləri gənc əsgərlərin xidmətə adaptasiya olunması, onların fərdi-psixoloji xüsusiyyətlərinin öyrənilməsi ilə bağlı görüşlər keçirir, müvafiq tövsiyələr verir, yeni üsulların tətbiqinə dair maarifləndirmə işləri yerinə yetirirlər.

Tədbirlərdə hərbi qulluqçuların psixoloji vəziyyətlərinin qiymətləndirilməsi, hərbi kollektivlərdə sosial-psixoloji proseslərin öyrənilməsi və s. mövzularda praktiki məşğələlər keçirilir, eləcə də gənc əsgərlərlə psixoloji maarifləndirmə mövzusunda söhbətlər aparılır.



AZƏRBAYCAN ORDUSU

# Hərbi hissələrdə ümumordu iməciliyi

*Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığına əsasən, noyabrın 24-də ümumordu iməciliyi keçirilib. Əlahiddə Ümumqoşun Ordu, birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrində ərazilər təmizlənib, hərbi hissələrdə, inzibati, xidməti bina və obyektlərin ətrafında müxtəlif növ ağaclar və gül kolları əkilib, yaşıllıq zolaqları salınıb.*



"N" hərbi hissəsində səhər saatlarında canlanma vardı. Müasir standartlara cavab verən hərbi hissənin ərazisində abadlaşdırma işləri aparıldığını, zabit, gizir və əsgərlər həvəslə ağac və güllərə qayğı göstərirdilər.

Polkovnik-leytenant Rəşid Tinayev keçirilən iməciliyin hərbi hissə ərazisinin daha da gözəlləşməsinə xidmət etdiyini bildirdi:

- Ali Baş Komandanın diqqət və qayğısı ilə bütün hərbi hissələrdə yenidənqurma işləri aparılıb. Bu proses uğurla davam etməkdədir. Üzərimizə düşən əsas vəzifə yaradılan bu şəraiti qoruyaraq gələcək nəslə ötürməkdir. Hərbi hissənin ərazisini gözəlləşdirmək üçün bütün şəxsi heyət həvəslə əlindən gələni edir. Gördüyünüz kimi, ağaclar əkilir, əsgər yataqxanalarının ətrafı abadlaşdırılır.

Şəxsi heyətin mənəvi-psixoloji vəziyyətinə cavabdeh zabit Rahib Vəzirov şəxsi heyətin iştirakı ilə hərbi hissə ərazisində yaşıllıqlara qulluq göstərilməsi, ekoloji mühitin sağlamlaşdırılması və abadlaşdırılması məqsədilə təşkil olunan iməcilikdə inzibati, xidməti bina və obyektlərin ətrafında abadlıq işlərinin görüldüyünü qeyd etdi:

- İməcilik ərəfəsində oksigen mənbəyi olan 1350 ədəd müxtəlif növ ağac və gül kolları əkildi. Əvvəllər əkilmiş ağacların dibləri təmizlənərək suvarıldı. Həmçinin şəxsi heyətdə yüksək bayram əhval-ruhiyyəsi yaratmaq üçün radioqovşaq vasitəsilə səsləndirilən hərbi vətənpərvərlik mahnıları əsgərlərin daha həvəslə işləməsinə zəmin yaratdı.

İməcilik zamanı qurumuş kolların ərazidən götürülməsi, ağaclara qulluq edilməsi və s. kimi təmizlik işləri görüldü. İməciliyin davamlı olacağının nəzərdə tutulduğu qeyd olundu.

* * *

Cəbhə xəttində yerləşən "N" hərbi hissəsində mayor Samiddin Zamanovun rəhbərliyi altında ərazilərin təmizlənməsi, ekoloji mühitin sağlamlaşdırılması və abadlaşdırılması məqsədilə təşkil olunan iməcilikdə inzibati, xidməti bina və obyektlərin ətrafında müxtəlif növ ağac və gül kollarının əkilməsi, eləcə də yaşıllıq zolaqlarının salınması həyata keçirildi. Görülən işlər barədə geniş məlumat verən mayor Samiddin Zamanov belə tədbirlərin əhəmiyyətindən danışdı. "Azərbaycanda ekoloji siyasətin əsas məqsədi indiki və gələcək nəsillərin ehtiyaclarının təmin edilməsi naminə mövcud ekoloji sistemlərin, iqtisadi potensialın qorunması və təbii ehtiyatlardan səmərəli istifadə edilməsi ilə davamlı inkişafın təmin edilməsindən ibarətdir. Bu ənənə xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulub. Ulu öndər Heydər Əliyevin ətraf mühitin mühafizəsi sahəsində əsasını qoyduğu siyasət bu gün Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında uğurla davam etdirilir. Bu sahədə həyata keçirilən ardıcıl tədbirlər, görülmüş mühüm işlər ekologiya və ətraf mühitin mühafizəsi sahəsində də yeni nailiyyətlərin əldə olunmasına şərait yaradıb. Bu sahədə ordunun şəxsi heyəti də yaxından iştirak edir. Bu gün biz də ağaclara xüsusi qulluq göstəririk, onların dibləri bellənilir və gövdə hissəsi əhənglənir. Eyni zamanda alaq otlarının çoxalmasının qarşısını almaq məqsədi ilə qazonlar biçilir. Onu da qeyd edək ki, qazonun tez-tez biçilməsi otları təravətli saxlayır.

Yaşıllıq zolaqlarının salınmasında iştirak edən müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Hafiz Məsiyev, əsgərlər Məzahir Yadigarov, İlkin Süleymanov, Elcan Rəhimov və başqaları təbiətə qayğı göstərməyin vacib olduğunu qeyd etdilər.

Əsgər Məzahir Yadigarov xidmət yoldaşları adından dedi ki, biz Müdafiə nazirinin göstərişini yerinə yetirməklə ordumuzun şəxsi heyətinin mənəvi-psixoloji hazırlığı səviyyəsinin yüksəldilməsini təmin edirik. Belə tədbirlərdə böyük həvəslə iştirak edirik. Bilirik ki, bu tədbir bizim özümüz üçündür, bizdən sonra iştirak edəcək əsgərlər üçündür, nəticə etibarilə Vətən üçündür.

* * *



Ölkəmizdə ekologiyanın qorunmasına da xüsusi diqqət yetirilir ki, bu da Azərbaycanın inkişaf strategiyasının prioritet istiqamətlərindən birinin - təbiətin mühafizəsinin, ekoloji vəziyyətin yaxşılaşdırılmasının və vətəndaşların sağlam təbii mühitdə yaşamasının ən yüksək səviyyədə təmin etmək deməkdir.

Cəbhə xəttində yerləşən "N" hərbi hissəsində mayor Azər Baxşəliyevin nəzarəti altında keçirilən iməcilikdə biz də iştirak etdik. Zabit söhbətində bildirdi ki, ekoloji hüquq normalarında, qanunvericilikdə nəzərdə tutulmuş müəyyən prinsiplərə uyğun olaraq ətraf mühitin mühafizəsi, qorunub saxlanılmasıdır. "Onların arasında əsas yeri insanların həyat və sağlamlıqlarının mühafizəsinin üstünlüyü tutur. Ətraf mühitin yararlı olmasını müəyyən edən və bioloji müxtəlifliyin qorunub saxlanması üçün biz insanlar təbiəti mühafizə etməyi öyrənməliyik. Buna görə də hərbi hissəmizdə ətraf mühitin mühafizəsi yüksək səviyyədə təşkil olunur. Hər həftə ətraf mühitə qulluq göstərilir, onun təmiz və gigiyenik olması sağlamlıq baxımından böyük əhəmiyyət daşıyır. Yaşadığımız məhəllənin, küçənin, rayonun, şəhərin, bütövlükdə ölkənin təmiz və sağlam olması bu çevrədə yaşayan insanların sağlamlığı, gözəlliyi deməkdir".



Gizir Bəxtiyar Abdullayev, əsgərlər Amil Məmmədov, Məmməd Balayev, Səlim Alıcanlı və başqaları təbiətə qayğı göstərməyin hər kəsin mənəvi borcu olduğunu qeyd etdilər.

İməcilikdə inzibati, xidməti bina və obyektlərin ətrafında müxtəlif növ ağac və gül kollarının əkilməsi, eləcə də yaşıllıq zolaqlarının salınması həyata keçirildi. Şəxsi heyət ağac və gül kollarının diblərini belləyib, səkiləri rənglədi, ağacları əhəngləndi.

* * *

İməcilik eyni məqsədi birgə icra etməkdir. İməcilik kollektiv üçündür, kollektivçiliyin təzahürü kimi dəyərləndirilməlidir. Hər iməciliyin öz mahiyyəti, məqsədi olur. Müdafiə nazirinin tapşırığı ilə keçirilən cari iməcilik bilavasitə şəxsi heyətin sağlamlığının qayğısına qalmaqdan ibarətdir. Yaşıllığın istər estetik, istərsə də sağlamlıq baxımından nə qədər gərəkli olduğunu şərh etməyə ehtiyac yoxdur. Hərbi hissələrdə bu tədbir məhz bu baxımdan böyük coşqu ilə həyata keçirildi. Hər zabit, hər müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu, hər əsgər bu iməcilikdə olduqca böyük ruh yüksəkliyi ilə iştirak edirdi. Xidmət yerimizin gözəlliyinin təmin olunmasına qayğı hər birimizin təkcə vəzifə borcu deyil, həm də mənəvi borcudu. Azərbaycan Ordusunun hərbi qulluqçusu olaraq biz belə tədbirlərdə iştirak etməyi mənəvi həm də borc bilirik. Ağacları, gül kollarını öz hərbi hissəmizdə özümüz üçün əkirik, bizdən sonra xidmət edənlər üçün əkirik. Onlar da ağaclar, güllər əkəcəklər. Həm də elə bizim həvəsdə...

"N" hərbi hissəsində iməciliyin mahiyyətindən, vaxtilə ulu öndər Heydər Əliyevin də ağac əkməyə, yaşıllıqlar salınmasına xüsusi diqqət yetirdiyindən danışdı. Zabit belə tədbirlərin əhəmiyyətli olduğunu qeyd etdi. "Ölkəmizdə prioritet məsələlərdən biri də ətraf mühitin mühafizəsini və insanların sağlam təbii mühitdə yaşamasını yüksək səviyyədə təmin etməkdir. Ağac əkmək təbiətə can vermək, ətraf mühiti yaşıllaşdırmaq gözəl bir təşəbbüsdür. Heç şübhəsiz, yaşıllıqların qorunması və yeni ağacların əkilməsi bizim və gələcək nəsillərin həyatında böyük təsirə malikdir. Təmiz və sağlam ətraf mühitin olmasında ağacların rolu müstəsnadır. Ağaclar insanın qoruyucusu, onun sağlamlığının keşikçisidir. Ağaclar atmosferin çirklənməsinin qarşısını alan ən etibarlı müdafiə vasitəsidir. Onlar ekoloji vəziyyətin yaxşılaşdırılması, mahiyyət etibarı ilə insan sağlamlığının qorunmasını təmin edir. Payızın sonları ağac əkmək üçün münasib zaman sayılır. Ağac əkmək çox faydalı, həm də çətin olmayan bir işdir. Bu gün əkilən hər bir ağac gələcək nəsillərə yadigar qalacaq. Əkdiyin ağacın necə böyüdüyünü, ətrafa kölgə saldığını, bar verdiyini görmək insanı sevindirir. Bütün vətəndaşlar Vətənin təbiətini, yaşıllığı qorumağı özlərinə borc bilməlidirlər. Ümummilli lider Heydər Əliyev qeyd edirdi: "... Hər bir insan ağac əkməlidir, becərməlidir, böyütməlidir. Əgər kimsə sağlam ağacı kəsirsə, o, nəinki xalqına, millətinə, ölkəsinə xəyanət edir, o, öz ailəsinə, özü-özünə xəyanət edir..." Ümummilli Liderimizin bu sözləri hər birimiz üçün şüar olmalıdır."

Sonra genişmiqyaslı iməciliyə start verildi. Şəxsi heyətin fəal iştirakı ilə hərbi hissənin ərazisi kənar əşyalardan, alaq otlarından təmizləndi. Çoxlu sayda müxtəlif növ tinglər, gül və bəzək kolları əkildi. Əkilən tinglərə üzvi gübrə verilərək suvarıldı, dibləri bərkidildi.

**"Azərbaycan Ordusu"**

*Ordu və cəmiyyət*

# İntizam xidmətdə başlıca şərtdir

*Noyabrın 23-də Azərbaycan Respublikası Hərbi Prokurorunun və Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumun Prezidentinin birgə təsdiq etdiyi plana uyğun olaraq, Qazax Hərbi Prokurorluğunun cəbhə bölgəsində yerləşən "N" hərbi hissəsinin təşkilatçılığı ilə əsgərlərin milli düşüncəsi və milli təfəkkürünün formalaşması, hərbi intizamın möhkəmləndirilməsi məqsədi ilə tədbir keçirildi.*



Tədbirdə Azərbaycan Respublikasının Hərbi Prokurorluğunun nümayəndəsi, Qazax qarnizonu Hərbi prokuroru, Milli Qeyri-Hökumət Təşkilatları Forumu Şəmkir Regional Qeyri-Hökumət Təşkilatlarının Resurs və Təlim İctimai Birliyinin sədri, Azərbaycan Vətən Müharibəsi Veteranları Birliyinin Tovuz rayon şöbəsinin sədri, Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin Şəmkir rayon filialının sədr müavini və hərbi hissənin şəxsi heyəti iştirak edirdilər.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin və torpaqlarımızın suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Tədbiri giriş sözü ilə açan Azərbaycan Respublikasının Hərbi Prokurorluğunun əməkdaşı ədliyyə polkovniki Toğrul Hüseynov bildirdi ki, Azərbaycan Ordusunda həyata keçirilən islahatların nə dərəcədə uğurlu olmasına 2016-cı ilin aprelində həyata keçirilən əks-həmlə əməliyyatı əyani sübutdur. "Ordumuzun bu əməliyyatda əsas hədəfi Ermənistan-Azərbaycan qoşunlarının təmas xəttinə yaxın kəndlərdə yaşayan və düşmən tərəfindən daim atəşə məruz qalan azərbaycanlı dinc əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə erməni hərbi birləşmələrinin atəş nöqtələrini zərərsizləşdirmək idi. Ordumuzun hər bir hərbi qulluqçusunun bu döyüşlərdə milli təfəkkürdən irəli gələn iradəli davranışı nəticəsində Ermənistan silahlı qüvvələrinin bölmələri aprel döyüşlərində böyük itkilərə məruz qaldı. Beləliklə, qeyd etmək vacibdir ki, ordumuz respublikamızın suverenliyinin, ərazi bütövlüyünün, onun toxunulmazlığının və mənafeyinin silahlı müdafiəsinə, dövlətə silahlı hücumun qarşısının alınmasına, təcavüz olarsa, onun dəf edilməsinə xidmət edir. Bu səbəbdən də 2016-cı ilin aprel döyüşlərində olduğu kimi, Azərbaycan Ordusu bu müqəddəs vəzifələri yerinə yetirmək üçün daim döyüşə hazır vəziyyətdə olmalıdır. Bunun üçün möhkəm hərbi intizamın, döyüş hazırlığının və döyüş qabiliyyətinin yüksək olması əsas şərtlərdəndir. Müasir dövrdə hərbi intizamın rolu əvəzedilməzdir.

Göstərilənlərlə əlaqədar olaraq Müdafiə Nazirliyi və Respublika Hərbi Prokurorluğu arasında Silahlı Qüvvələrdə hüquq qaydalarının və hərbi intizamın möhkəmləndirilməsi, cinayət hadisələrinin qarşısının alınması sahəsində 2018-ci il üçün imzalanan birgə tədbirlər planına əsasən, ərazi hərbi prokurorları və həmin prokurorluqların əməkdaşları mütəmadi olaraq hərbi hissələrdə şəxsi heyətlə görüşlər keçirir, onların vətənpərvərlik ruhunda tərbiyə olunması, hərbi intizamın və hüquq qaydalarının möhkəmləndirilməsi, ordu quruculuğuna mənfi təsir edə biləcək cinayət hadisələrinin təhlili və nəticələrindən asılı olaraq müvafiq tədbirlərin görülməsi, o cümlədən digər məsələlər barədə söhbətlər aparılır, müxtəlif mövzularda təkliflər səsləndirilməklə hərbi qulluqçuları maraqlandıran bütün suallar ətraflı cavablandırılır. Qeyd olunan tədbirlərin keçirilməsi növbəti illərdə də davam etdiriləcəkdir".



Qazax qarnizonu Hərbi prokuroru, ədliyyə mayoru Bəhruz Əhmədov hərbi qulluqçuların intizam məsuliyyəti barədə geniş məlumat verdi. "Azərbaycan Respublikasının Konstitusiyası Vətənin müdafiəsini, onun hər bir vətəndaşının müqəddəs borcu və qanunla müəyyən edilmiş qaydada hərbi xidmət keçməyi vətəndaşların əsas vəzifələrindən biri kimi müəyyənləşdirmişdir. Hərbi qulluqçu öz Vətəninin müdafiəsi üçün şəxsi məsuliyyət daşıyır və borcludur ki, Azərbaycan Respublikasının Konstitusiyasına, qanunlarına və Hərbi anda böyük məsuliyyətlə, sədaqətlə riayət etsin, hərbi və xalq əmlakını qorusun. Azərbaycan Respublikasının Silahlı Qüvvələri sıralarına daxil olarkən hər bir vətəndaş Hərbi andı qəbul edir və andını pozarsa, Azərbaycan Respublikası qanunlarının tam ciddiyyəti üzrə məsuliyyət daşımağa hazır olduğunu elan edir.

Beləliklə, Azərbaycan Respublikasının Silahlı Qüvvələri müqəddəs vəzifələri yerinə yetirmək üçün daim döyüşə hazır vəziyyətdə olmalıdır. Möhkəm hərbi intizam yüksək döyüş qabiliyyətli olmağın əsas şərtidir. Azərbaycan Respublikasının Silahlı Qüvvələrində hərbi intizam hərbi qulluqçuların şüurluluğuna, vətənpərvərlik borclarını dərindən dərk etmələrinə və Vətənə sonsuz məhəbbət bəsləmələrinə əsaslanır. Lakin bunlar öz hərbi borcuna etinasız yanaşan hərbi qulluqçulara məcburiyyət tədbirlərinin tətbiqini istisna etmir.

Hərbi qulluqçu öz Vətəninin müdafiəsi üçün şəxsi məsuliyyət daşıyır və borcludur ki, Azərbaycanın mənafeyini qorusun, onun nüfuzunun və qüdrətinin möhkəmlənməsinə səy göstərsin, Azərbaycan Respublikası Konstitusiyasına, qanunlarına və Hərbi anda müqəddəs və sarsılmaz surətdə riayət etsin, intizamlı, vicdanlı, cəsarətli olsun, hərbi borcunu yerinə yetirərkən bütün qüvvəsini, lazım gəldikdə canını belə əsirgəməsin, komandirlərə sözsüz tabe olsun, döyüşdə onları müdafiə etsin, həmçinin öz hərbi hissəsinin Döyüş Bayrağını göz bəbəyi kimi qorusun. Hərbi qulluqçu ezamiyyətdə, məzuniyyətdə, tibb müəssisəsində müalicə zamanı və digər hallarda törətdiyi nalayiq hərəkətlərə görə böyük rəislərdən aldığı intizam cəzası barədə daimi xidmət yerinə qayıdan kimi özünün bilavasitə rəisinə məlumat verməlidir, əks təqdirdə o, bu iş üçün intizabi məsuliyyət daşıyır".

Azərbaycan Vətən Müharibəsi Veteranları Birliyinin Tovuz rayon şöbəsinin sədri Nazim Quliyev xalqla ordu arasında yaranmış qarşılıqlı inam və birliyin yeni nailiyyətlərə apardığını bildirdi. "Dövlətimizin ərazi bütövlüyünün, sülhün, əmin-amanlığın, müstəqilliyimizin təminatçısı olan ordumuzun arxasında xalqı dayanır. Bu birlik ordumuzu daha da yenilməz, qüdrətli edir. Müasir standartlara cavab verən hərbi hissələrin inşası bir daha onu göstərdi ki, ölkə rəhbərliyinin ordumuza qayğısı və diqqəti sərhədsizdir. Vətəndaş olaraq bizlər də daim ordumuza qayğı göstərməliyik. Şəxsi heyətin mənəvi-psixoloji hazırlığının yüksək olması üçün mütəmadi olaraq onlarla görüşlər keçirməliyik. Ordu bizim övladlarımızdan təşkil olunub. Hər birimizin arzusu onların güclü, məğlubedilməz olmalarıdır. Bunun üçün əlimizdən gələni əsirgəməməliyik. Öhdəmizə düşən vəzifənin məsuliyyətini dərindən başa düşməli, amalımıza doğru irəliləməliyik. Əlbəttə ki, hər birimizin yalnız bir amalı var - işğal olan torpaqlarımızı azad etmək. Aprel döyüşləri düşmən üzərində Böyük Qələbənin başlanğıcı olmaqla bərabər, Azərbaycan Ordusunun gücünü göstərdi, şəxsi heyətin özünə inamını və döyüş ruhunu artırdı. Həmçinin xalqımızın öz ordusuna inamını, vətənpərvərlik hissini daha da gücləndirdi. Bütün bunlar əminliklə deməyə imkan verir ki, Böyük Qələbəyə az qalıb. Biz veteranlar daim xalqımıza, dövlətimizə sadiqik, bunu əməllərimizlə göstərir və hər zaman göstərəcəyik. Ehtiyac olarsa, gələcək döyüşlərdə bizlər də ordu sıralarında döyüşməyə hazırıq!"



Milli Qeyri-Hökumət Təşkilatları Forumu Şəmkir Regional Qeyri-Hökumət Təşkilatlarının Resurs və Təlim İctimai Birliyinin sədri Fuad Bədəlov bildirdi ki, əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan ordu quruculuğu siyasəti bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən uğurla davam etdirilir. "Azərbaycan Ordusunun silah arsenalı və maddi-texniki təminatı gücləndirilir, şəxsi heyətin sosial-məişət şəraiti yaxşılaşdırılır, mənəvi-psixoloji hazırlığı və döyüş ruhu günü-gündən daha da artırılır. Ordumuzun qüdrətini artıran mühüm amillərdən biri də xalq-ordu birliyidir. Xalqımız öz ordusuna inanır və güvənir. Bu da hər bir vətəndaşda vətənpərvərlik hissini daha da gücləndirir. Onu da qeyd edim ki, aprel zəfəri ordu ilə xalq birliyinin təntənəsinə çevrildi".

Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin Şəmkir rayon filialının sədr müavini bildirdi ki, hər bir cəmiyyətin gələcəyi onun yetişməkdə olan gənc nəslidir. "Bugünkü gənclərimiz nə qədər savadlı, vətənpərvər, yüksək dünyagörüşünə malik olarsa, dövlətin, millətin gələcəyi bir o qədər işıqlı və ümidverici olar. Milli dövlətçiliyin formalaşması, milli mənlik şüurunun inkişaf etdirilməsi, vətənpərvərlik ruhunun yüksəldilməsi kimi proseslərdə gənclərin üzərinə böyük məsuliyyət düşür. Gənc nəslin həm fiziki, həm də mənəvi cəhətdən sağlam böyüməsi, elmi və mədəni tərəqqisi mühüm amildir. Bu baxımdan ölkəmizdə gənclərlə iş sahəsində görülən tədbirlər Azərbaycan gəncliyinin inkişafında böyük rol oynamışdır. Gənc nəslin düzgün yetişdirilməsi ölkə siyasətində önəmli yer tutur. Ümummilli liderimiz Heydər Əliyev öz siyasətində daima gənclərə qayğı göstərmiş, onların bir fərd kimi yetişməsinə xüsusi önəm vermişdir. Ulu Öndər sağlam düşüncəli yeni nəslin yetişdirilməsi sahəsində misilsiz işlər görmüşdür. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan dövlət gənclər siyasətinin Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsində, bu gün Azərbaycan gəncləri bütün sahələrdə özlərini doğruldurlar. Düzgün şəkildə formalaşan gənclərimiz hərbi qulluğa çağırıldığı zaman ordunun döyüş qabiliyyətinin gücləndirilməsinə böyük təkan verirlər. Çünki müasir silah və texnikaları idarə edən Azərbaycan gənci, Azərbaycan əsgəridir. 2016-cı ilin aprel döyüşləri aparılan islahatların nə qədər gərəkli olduğunu bir daha sübut etdi. Qısa müddətdə düşmənin çoxlu sayda canlı qüvvəsi, zirehli texnikası, habelə strateji əhəmiyyətli hərbi bazaları güclü atəş zərbəsi ilə məhv edildi, mühüm əhəmiyyətli ərazilərimiz geri qaytarıldı. Bir daha sübut olundu ki, Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad etməyə qadirdir."

Auditoriya tədbirindən sonra qonaqlar səngərdə şəxsi heyətin sosial-məişət şəraiti ilə yaxından tanış oldular, onlara qiymətli hədiyyələr təqdim etdilər, əsgərlərimizin suallarını cavablandırdılar.

**Baş leytenant
Orxan HÜSEYNLİ,
baş leytenant
Ruslan HƏSƏNZADƏ,
"Azərbaycan Ordusu",
fotolar
çavuş
Namiq PƏNAHOVUNDUR**

# Xarici ölkələrin Azərbaycandakı hərbi attaşeləri hərbi hissəni ziyarət ediblər





*Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi fəaliyyət planına əsasən, ölkəmizdə akkreditə olunmuş xarici dövlətlərin hərbi attaşelərinin hərbi hissəyə və Səngəçal terminalına tanışlıq səfəri təşkil olunub.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, 17 dövləti təmsil edən hərbi attaşelik aparatının 20 nümayəndəsinə hərbi hissə və terminal barədə brifinq təqdim olunduqdan sonra onlar ərazi ilə tanış olublar.

# Ordu ilə ictimaiyyət arasında əlaqələrin genişlənməsi şəxsi heyətin döyüş ruhunu daha da artırır

*Azərbaycanın görkəmli elm, mədəniyyət, incəsənət və ədəbiyyat xadimləri, eləcə də ictimaiyyətin nümayəndələri tez-tez ordumuzun müxtəlif hərbi hissələrində, ön xətdə yerləşən bölmələrdə, xüsusi təyinatlı hərbi təhsil müəssisələrində olaraq şəxsi heyətlə görüşür, onlar üçün yaradılan xidməti şəraitlə yaxından tanış olur, təklif və tövsiyələrini verirlər.*



Ordu ilə ictimaiyyət arasında əlaqələrin gündən-günə genişlənməsi həm şəxsi heyətin döyüş ruhunu, mənəvi-psixoloji hazırlığını, vətənpərvərlik hissini yüksəldir, həm də xalqın öz ordusuna, onun güc və qüdrətinə inamını daha da artırır.

Bu gün hərbi hissələrdən birinin qonağı olan Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin kafedra müdiri, respublikanın Əməkdar artisti, dosent Azad Şükürov hərbi şəhərcikdəki xidməti, inzibati binalar və digər obyektlərə baş çəkərək şəxsi heyətin sosial-məişət şəraiti ilə tanış olub. Hərbi qulluqçularla görüşən A.Şükürov onların qayğıları ilə maraqlanıb, ideoloji otaqda fərdi söhbətlər aparıb və əsgərlərlə birlikdə nahar edib.

A.Şükürov qeyd edib ki, ordumuz yarandığı ilk gündən o da "Döyüşən teatr" kimi tanınan Bakı Bələdiyyə Teatrının yaradıcı kollektivi ilə birlikdə bütün bölgələrə səfər edib, döyüşlər getdiyi bir vaxtda əsgərlərimizə mənəvi dayaq olublar. O, oğlunun ali təhsilini başa vurduqdan sonra cəbhəboyu zonada yerləşən hərbi hissələrdən birində xidmət etdiyini də fəxrlə xatırlayıb.

"Hər dəfə hərbi hissələrə gedərkən bir yeniliyin şahidi oluram. Yeni hərbi şəhərciklər, maddi-texniki bazanın möhkəmlənməsi, hərbi qulluqçuların peşəkarlığının artması bir ziyalı kimi məni də sevindirir. Cari ildə keçirilən hər iki hərbi paradda ordumuz sərəncamında olan silah və texnikanın yalnız bir qismini nümayiş etdirdi. Ancaq mən şahidəm ki, ordumuz daha böyük hərbi gücə malikdir.

Azərbaycan Ordusunun bugünkü vəziyyətinin tam əksinə olaraq təcavüzkar Ermənistan ordusu acınacaqlı durumdadır. Hətta Ermənistan rəhbərliyi belə ordularındakı neqativ halları etiraf etmək məcburiyyətində qalıb. Ermənistan ordusunda fərarilik halları, qeyri-döyüş itkiləri çoxalır, xəstəlik baş alıb gedir, təminat məsələlərində özbaşınalıqdır, rüşvətxorluq, oğurluq adi hala çevrilib. Əsgər valideynlərinin etiraz dalğası artıq ölkəni bürüyüb. Bütün bunlar Ermənistan kütləvi informasiya vasitələrinin, eləcə də yerli və xarici ekspertlərin yaydıqları dəhşətli xəbərlərdir.

Bu gün mən bir hərbi hissəni ziyarət etməklə bir daha bu qənaətə gəldim ki, həqiqətən də Azərbaycanda ordu quruculuğu, ölkəmizin müdafiə qüdrətinin möhkəmlənməsi, ərazi bütövlüyümüzün təmin edilməsi məsələləri ölkə rəhbərliyinin daim diqqət mərkəzindədir və aparılan müstəqil, təmkinli, məqsədyönlü siyasət nəticəsində işğal altında olan torpaqlarımız tezliklə azad ediləcəkdir", - deyə Azad Şükürov bildirib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Müddətdən artıq həqiqi hərbi xidmət keçmək istəyənlərin nəzərinə

Müdafiə Nazirliyinin hərbi hissələrinə müddətdən artıq həqiqi hərbi xidmətə könüllü daxil olmaq arzusunda olan, ən azı ümumi orta təhsilli, qanunla müəyyənləşdirilmiş müddətli həqiqi hərbi xidmətini başa vurmuş, 28 yaşınadək hərbi vəzifəlilər **dekabrın 1-dən 20-dək** müvafiq sənədlərlə birlikdə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində, eləcə də hərbi birliklərin qərargahlarında fəaliyyət göstərən qəbul komissiyalarına müraciət edə bilərlər.

"Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı kursu"na qəbul olunmaq üçün müraciət etmiş vətəndaşlar qəbul komissiyaları tərəfindən hərbi xidmətə yararlılıq dərəcələrinin müəyyən edilməsi məqsədi ilə Müdafiə Nazirliyinin Hərbi Həkim Komissiyasına göndərilir. Hərbi Həkim Komissiyasının qərarına əsasən hərbi xidmətə yararlı hesab edilmiş şəxslər qəbul imtahanlarına buraxılır.

Fiziki hazırlığı, ümumi bilik səviyyəsi, düşünmə qabiliyyəti, peşə maraqları, ünsiyyət qurmaq, liderlik və qərar qəbuletmə bacarıqları, həmçinin fərdi-psixoloji və digər keyfiyyətlərinin öyrənilməsi məqsədilə keçirilən imtahanları müvəffəqiyyətlə vermiş namizədlər kursa qəbul edilirlər.

Kursu müvəffəqiyyətlə başa vuran şəxslərlə 3 (üç) il müddətinə bağlaşma imzalanır və onlar ixtisaslarına uyğun müvafiq vəzifələrə təyin olunurlar.

Namizədlər qəbul komissiyalarına müraciət edərkən aşağıdakı sənədləri təqdim etməlidirlər:

- kursa qəbul olunmaq barədə ərizə (qəbul komissiyasının sədrinə);
- şəxsən yazılmış tərcümeyi-hal, əlyazma ilə 1 nüsxədə, çap variantı 2 nüsxədə;
- xidmət (iş və ya təhsil) yerindən xasiyyətnamə;
- təhsil haqqında sənədin notarial qaydada təsdiq edilmiş surəti - 2 nüsxədə;
- doğum haqqında şəhadətnamənin təsdiq edilmiş surəti - 2 nüsxədə;
- şəxsiyyət vəsiqəsinin notarial qaydada təsdiq edilmiş surəti - 2 nüsxədə;
- nikah haqqında şəhadətnamənin notarial qaydada təsdiq edilmiş surəti (evli olduqda) - 2 nüsxədə;
- uşaqların doğum haqqında şəhadətnamələrinin notarial qaydada təsdiq edilmiş surətləri (uşaq olduqda) - 2 nüsxədə;
- evlər idarəsindən və ya yerli icra hakimiyyəti orqanlarından ailə tərkibi və yaşayış yeri haqqında arayış - 2 nüsxədə;
- 4 ədəd rəngli fotoşəkil (baş geyimsiz, anfas, 2 ədəd 3x4 sm və 2 ədəd 4,5x6 sm ölçüdə);
- qeydiyyatda olduğu poliklinikadan (dəri-zöhrəvi, vərəm, ruhi-əsəb, narkoloji və son 5 (beş) ildə infeksion xəstəliklərlə bağlı müraciət edib-etməməsi barədə) arayış;
- hərbi biletin bütün vərəqlərinin surəti (notarial qaydada təsdiq olunmuş) - 2 nüsxədə;
- məhkumluğun olub-olmaması barədə qeydiyyatda olduğu rayon Polis İdarəsi (şöbə, bölmə) tərəfindən verilmiş arayış.

**Ünvan**: Bakı şəhəri, Yasamal rayonu, Şəfayət Mehdiyev küçəsi 76, "Qızıl Şərq" hərbi şəhərciyi (Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzi) və hərbi birliklərin qərargahları.

**Müraciət etmə vaxtı**: 2018-ci il dekabrın 1-dən 20-dək, hər gün (bazar günləri istisna olmaqla) saat 09.00-dan 14.00-dək.

**Telefon**: (012) 538-85-62.

**Qeyd:** *Müddətdən artıq həqiqi hərbi xidmətdən "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin hər hansı bir maddəsilə (156-cı maddənin "a" bəndi (xidmət müddəti başa çatdığına görə) və "q" bəndi (ştatların ixtisarına görə) istisna olunmaqla) ehtiyata buraxılmış hərbi qulluqçuların və məhkumluğunun ödənilməsindən asılı olmayaraq məhkumluğu olan hərbi vəzifəlilərin kursa qəbul üçün müraciət etməmələri xahiş olunur.*

Milli qəhrəmanlarımız

# 22 yaş və əbədiyyət



*Müharibədə əsgər qəhrəman olmaq üçün döyüşmür. Onu qəhrəman edən Vətən sevgisidi. Bu, amalın, əqidənin dövlətə, dövlətçiliyə sədaqətin təzahürüdü. 2016-cı ilin aprel döyüşlərindən neçə il əvvəl Mübariz İbrahimovun qəhrəmanlığı dünyanı heyrətə gətirdi. Düşmən gördü ki, Azərbaycan əsgəri Vətən naminə şəhid olmağı bacarır, işğal olunmuş torpaqlarını azad etmək üçün Mübarizləşəcək.*

2016-cı ilin aprel döyüşləri neçə-neçə əsgərin Mübarizləşdiyini təsdiqlədi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qürurla dediyi kimi, dərsliklərə salınmalı zəfər qazanıldı. Bu zəfər neçə-neçə yeniyetmənin, çağırışçının hərbi xidmət amalı oldu - hər biri Böyük Qələbənin əsgəri olmağa can atırdı...

Qusarın Həzrə kəndindən başlanan yolun sonunda qəhrəmanlıq işığı olduğunu kimsə bilmirdi. O işıq Vətən sevgisinin işığıydı. O işıq qışın sazağını çilikləyəcəkdi. O işığın adı cəsarətiydi, qəhrəmanlığıydı, Vətənə sədaqətiydi. Ruhun işığıydı o işıq...

Çingiz Qurbanov Azərbaycan Texniki Universitetini bitirmişdi. İstedadlı tələbəydi. Müəllimləri onun elmi idrakını yüksək dəyərləndirirdi. Təhsilini davam etdirməyi məsləhət görmüşdülər. Onda Çingiz qətiyyətlə "Hərbi xidmətə gedəcəm", - demişdi. "Əvvəl hərbi xidmət, Böyük Qələbə, sonra təhsil...". Müəllimləri bu kəlmələrdən qürurlanmışdı - belə vətənpərvərin müəllimi olmalarıyla, Azərbaycan gəncinin bu qətiyyətiylə, bu düşüncəsiylə. Uğurlar diləmişdilər Çingizə: "Magistraturada qalib əsgər kimi təhsil alacağına inanırıq...", - demişdilər.

Çingiz əsgəriydi. Xəyalında yaşatdığı anları sevgilərlə yaşayırdı. Xidmət yoldaşları xatırlayır ki, asudə vaxtlarında qəhrəmanlıqdan, qəhrəmanlardan danışardı. Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun qəhrəmanlığından söz düşəndə baxışlarının durulaşdığı aydınlığıyla duyulardı...

Ön xətdə xidmət edirdi Çingiz Qurbanov. Döyüş növbətçiliyinə gedəndə də, döyüş növbətçiliyində də, təlimlərdə də "Mən Azərbaycan əsgəriyəm!", - qürurunu yaşayırdı.

Bir dəfə döyüş növbətçiliyindən qayıdanda dostlarına "Kaş universiteti bir il tez bitirəydim...", - demişdi. Dostlarının "niyə?" - sualına cavab verməyə tələsməmişdi, səngərin o üzünə boylanıb, "Hərbi xidmətə bir il tez gələrdim, aprel döyüşlərində mən də iştirak edərdim...", - demişdi. 2016-cı ilin dekabrında məlum oldu ki, bu gecikmiş təəssüf Çingizin ruhunun harayıymış; o ruhun əsgəriydi Çingiz Qurbanov.



Qəhrəmanlıq fəlsəfəsinin mahiyyəti Vətənə, dövlətə, dövlətçiliyə sevgidi. Bu sevgi ruhumuzla yaşıddı, ruhumuz az qala bəşəriyyətə; Azərbaycan əsgərinin Vətən sevgisinin bəşəri mahiyyəti Ermənistanın Azərbaycana qarşı elan etmədən apardığı müharibədə bütün çalarlarıyla təsdiqlənirdi. 2016-cı il dekabrın 29-da əsgər Çingiz Qurbanovun qəhrəmanlığı tarix yazdı - düşmənin üstünə tək getdi Çingiz. Cəsarətlə getdi. Atışdı. Neçə-neçə düşməni məhv etdi. Şəhid oldu...

Əsgər Çingiz Qurbanov bilirdi ki, bu döyüşdə şəhid olacaq. Bilirdi, çəkinmədən getmişdi. Mənə belə gəlir ki, həmin anlarda şəhidlərimizin ruhu uğurlamışdı Çingizi...

Əsgər Çingiz Qurbanovun qəhrəmanlığı Mübariz İbrahimovun qəhrəmanlığının başqa məkanda, başqa formada təkrarıydı. Bu təkrarlıq əzmin, iradənin, cəsarətin, Vətən sevgisinin mahiyyətinin təkrarıydı...

Düşmən Azərbaycan əsgərinin qəhrəmanlığından da vahimələnmişdi. Bilirdi ki, Azərbaycan əsgərinin təkbaşına döyüşməsi aprel döyüşlərinin ağır məğlubiyyətinin ağrılarını qınına çəkilməklə yaşayan hərbi qulluqçularını vahimələndirib. Düşmən Çingiz Qurbanovun nəşini 39 gün vermədi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qətiyyəti Ermənistanın inadını sındırdı...

Əsgər Çingiz Qurbanov miqyassız ehtiramla dəfn edildi...

Mübariz İbrahimovun qəhrəmanlığı Mübarizləşmə təyini yaratmışdı, Çingiz Qurbanovun qəhrəmanlığı Çingizləşmə təyini yaratdı...

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamıyla əsgər Çingiz Qurbanova Azərbaycanın Milli Qəhrəmanı adı verildi...

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun əmriylə xidmət etdiyi posta Çingiz Qurbanovun adı verildi...

Müdafiə nazirinin əmriylə Azərbaycanın Milli Qəhrəmanı əsgər Çingiz Qurbanovun adı hərbi hissənin siyahısında daimi olacaq...

..."Çingiz Qurbanov adına post"a Çingizin atası Salman kişiylə birlikdə getmişdik. O duyğusal görüş unudulmayacaq. O görüşü Salman kişi də unutmayacaq, zabitlər də, əsgərlər də, mən də.

Salman kişiyə Çingizin xidmət etdiyi postun yaxınlığından dərilən güllər verildi, bir dəsmal arası torpaq verildi: "Bu torpağı məzarının üstünə səpin, gülləri məzarının üstünə qoyun. Qoy qardaşımızın ruhu qoruduğu torpaqdan, qoruduğu torpağın güllərindən uzaq olmasın...", - dedi əsgərlər...

Atanın gah bir vaxtlar oğlunun döyüş növbətçiliyi apardığı posta, gah oğlunun əsgər qardaşlarına dikilən baxışlarından bir mətləb oxunurdu: "Təki Vətən yaşasın!"...

Azərbaycanın Milli Qəhrəmanı Çingiz Qurbanovun anım günüdü. Həmişə 22 yaşda olacaq bu qəhrəman. Dəyişən onun qəhrəmanlığının tarixini göstərən rəqəmlər olacaq...

**Rəşid HÜSEYNOV, "Azərbaycan Ordusu"**

# MOİK idmançıları Azərbaycanın dünya çempionatının qalibi olmasında pay sahibi olublar



"Sərhədçi" İdman Olimpiya Kompleksində Alpaqut Turan döyüş sənəti üzrə birinci dünya çempionatı keçirilib. Bütün yaş qrupları üzrə 18 ölkədən - Azərbaycan, Türkiyə, Almaniya, Pakistan, Ukrayna, Əfqanıstan, Macarıstan, İran, Hindistan, Gürcüstan, Nepal, Qırğızıstan, Qazaxıstan, Rusiya, Kamerun, Türkmənistan, Nigeriya, Özbəkistandan 500-dək idmançının qüvvəsini sınadığı yarışlarda aypara, batur, caymaz və qurşaq sistemləri üzrə ən güclü atletlər müəyyənləşib.

Azərbaycan idmançıları çempionatda uğurla çıxış edərək ümumi komanda hesabında birinci yeri tutublar. Türkiyə komandası ikinci, Qazaxıstan və Gürcüstan yığmaları üçüncü yerə layiq görülüblər.

Sevindirici haldır ki, Azərbaycanın dünya çempionu olmasında MOİK idmançıları da pay sahibi olub. Belə ki, əsasən aypara sistemi üzrə yarışlara qatılan təmsilçilərimiz toplamda 15 medal qazanıblar.

Nurlan Əliyev, Heydər Abbasov və Abbas Dünyamalıyev qızıl, Sənan Bədəlov, Turan Abdullayev, Hüseyn İsmayılov gümüş, Elşad Məmmədov, Rasim Mehdiyev, Oğuz Ağayev, Ramiz Abbasov, Əli Tağızadə, Uğur Abbasov, Murad Bədəlov, Məhəmməd Əliyev və Münəvvər İdrisova isə bürünc medal əldə ediblər.

**Elvin YAQUBOV**

# Xəbərlər: hadisələr, faktlar

## İstanbulda hərbi helikopterin qəzaya uğraması nəticəsində dörd nəfər həlak olub



İstanbulun Sancaqtəpə rayonunda hərbi helikopterin qəzaya uğraması nəticəsində dörd hərbçi həlak olub, biri xəsarət alıb.

Qəza zamanı dördmərtəbəli yaşayış binasının damına çırpılan helikopter küçəyə düşüb. Hadisə yerinə təhlükəsizlik qüvvələri və təcili tibbi yardım briqadaları cəlb olunub. Xəsarət alan hərbi qulluqçu dərhal xəstəxanaya yerləşdirilib.

İstanbul valisi Ali Yerlikaya Anadolu agentliyinə açıqlamasında helikopterin 1-ci Ordu komandanlığının tabeliyindəki Samandıra hərbi hissəsinin hava alayına məxsus olduğunu bildirib. O, qəzanın baş verməsinin səbəblərinin araşdırıldığını vurğulayıb.

## Yonhap: Çin hərbi təyyarəsi Cənubi Koreyanın hava zonasına daxil olub



Çinə məxsus hərbi təyyarə əvvəlcədən xəbərdar etmədən üç dəfə Cənubi Koreyanın hava zonasına daxil olub.

Yonhap agentliyi Cənubi Koreya silahlı qüvvələrinin birləşmiş qərargahına istinadla bu barədə məlumat yayıb. Bildirilir ki, Cənubi Koreya hərbi hava qüvvələrinin 10 təyyarəsi Çin hərbi təyyarəsini izləmək və xəbərdarlıq etmək üçün havaya qalxıb. Bundan başqa, Çinin Seuldakı hərbi attaşesi məsələ ilə əlaqədar Cənubi Koreya Müdafiə Nazirliyinə çağırılıb və etiraz bildirilib.

Analoji hadisə təxminən bir ay əvvəl də baş vermişdi.

## ABŞ silahlı qüvvələri İsveçin “SAAB Defense&Security” şirkətindən kamuflyaj torları alacaqlar



Amerika hərbçiləri İsveçin "SAAB Defense&Security" şirkətində istehsal edilən ULCANS - "Ultra Lightweight Camouflage Net Systems" ultrayüngül kamuflyaj torları alacaq.

Amerikalı hərbçilər bir neçə növ, o cümlədən meşə və səhra variantlı kamuflyaj torlar alacaqlar. Amerika ordusunun ehtiyacları üçün alınan torlar silahlı qüvvələrin komandanlığının ABŞ ərazisinə aid texnoloji tələbləri əsasında hazırlanıb. Kamuflyaj torları "Saab Barracuda" şirkətinin Şimali Karolina ştatında yerləşən Amerika bölməsində də istehsal ediləcək.

İstehsalçıların sözlərinə görə, ULCANS kamuflyaj torları ehtimal edilən hər hansı təhlükədən çoxspektli müdafiə səviyyəsinə malikdir. ULCANS torlarının əsas xüsusiyyəti ondan ibarətdir ki, onlar obyektləri həm vizual qaydada, həm də infraqırmızı şüalar vasitəsilə aşkar olunmaqdan qoruyur. Bu torlardan istifadə etməklə komanda məntəqələrini, blindaj və səngər kommunikasiyalarını qorumaq, həmçinin hərbi texnikanı kamuflyaj etmək mümkündür.

## Gürcüstan dövlətçilik tarixində ilk dəfə Almaniya ilə hərbi sahədə ikitərəfli əməkdaşlıq edəcək



Gürcüstan dövlətçilik tarixində ilk dəfə Almaniya ilə hərbi sahədə ikitərəfli əməkdaşlıq edəcək.

Bu barədə Gürcüstan Müdafiə Nazirliyi məlumat yayıb. Bildirilir ki, Berlində "Gürcüstan Müdafiə Nazirliyi ilə Almaniya Federativ Respublikasının Müdafiə Nazirliyi arasında hərbi əməkdaşlıq haqqında" müqavilə imzalanacaq. Gürcüstan Müdafiə naziri Levan Ozoria bu məqsədlə artıq Almaniyaya yola düşüb.

Bundan başqa, L.İzoria Almaniya silahlı qüvvələrinin baş qərargah rəisi və parlamentin müdafiə komitəsinin üzvləri ilə də görüşlər keçirəcək.

**AZƏRTAC-ın materialları əsasında**

# Voleybol üzrə ordu birinciliyi keçirildi



*Müdafiə nazirinin 2018-ci il üçün təsdiq etdiyi plana əsasən, 19-24 noyabr tarixlərində Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin idman zalında voleybol üzrə ordu birinciliyi start götürdü. Yarışda hərbi birləşmələri, qoşun növü və qismləri-ni, xüsusi təyinatlı hərbi təhsil müəssisələrini təmsil edən idmançılardan ibarət 15 komanda iştirak edirdi. Ümummilli lider Heydər Əliyevin və torpaqlarımızın ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra hərbi orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.*

Tədbiri giriş sözü ilə açan Müdafiə Nazirliyi Döyüş Hazırlığı və Hərbi Təhsil Baş İdarəsinin Döyüş Hazırlığı İdarəsinin Fiziki Hazırlıq və İdman şöbəsinin rəisi polkovnik Sadiq Paşayev yarış iştirakçılarını salamladı və ölkəmizdə inkişaf edən idman sahəsinin ordumuza da müsbət təsir göstərdiyini vurğuladı. "İnsanların istər fiziki, istərsə də mənəvi sağlam olmasında idmanın rolu əvəzolunmazdır. İdmanla mütəmadi məşğul olan kəs həm qüvvətli, həm də möhkəm iradəli şəxsiyyət kimi formalaşır. İdmanın inkişafı, gənc nəslin sağlam olması hər zaman rəhbərliyin diqqət mərkəzində olan vacib məsələlərdən biri olub. Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan müasir dövlət quruculuğu siyasətində gənclərin sağlam ruhda böyüməsi prioritet məsələlərdən idi. Bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Ümummilli Liderimizin yürütdüyü siyasəti uğurla davam etdirir. İdman sahəsinə ayrılan diqqət ordumuzdan da yan keçmir. Respublikamızın şəhər, rayon, cəbhəyanı ərazilərində müasir standartlara cavab verən hərbi hissələr tikilir. Hərbi hissələrdə müasir idman alətləri ilə təchiz olunmuş idman şəhərcikləri, həmçinin trenajor zalları hərbi qulluqçuların istifadəsinə verilir. Şəxsi heyətin fiziki hazırlığının yüksək səviyyədə olması onların qarşıya qoyulan tapşırıqların öhdəsindən daha səlis şəkildə və tez müddətdə gəlməsinə kömək edir. Ordumuzda şəxsi heyətin fiziki hazırlığının yüksəldilməsinə yönəlik tədbirlərdən biri də ordu birinciliyi yarışlarıdır. Bu yarışlar müxtəlif idman növləri üzrə hər il təşkil edilir. Ordu sıralarında xidmət edən hərbi qulluqçularımız bu turnirlərdə güclərini sınayırlar. Yarışda iştirak edən hər bir idmançıya uğurlar diləyirəm və arzu edirəm ki, üçrəngli bayrağımızı daim zirvələrdə saxlayasınız. İstər döyüş meydanında, istərsə də beynəlxalq arenada."

Zabitin çıxışından sonra yarışlara start verildi. Oyunlar voleybol üzrə respublika dərəcəli hakimlər Fuad Əliyev, Cəlil Cəlilov və Vüqar Mənsimov tərəfindən idarə olunurdu. Yarışın ilk günlərində komandalar qrup mərhələsində öz güclərini sınadılar.

Qrup mərhələlərində uğurla çıxış edən komandalar növbəti mərhələyə adladılar. Dörddəbir final mərhələsinin ilk oyununda "HHQ" və "HDQ" komandaları üz-üzə gəldilər. Gərgin keçən qarşılaşmada "HHQ" komandası rəqibindən güclü oldu. Növbəti oyun "Şəmkir" və "TTM" komandaları arasında baş tutdu. Bu oyunda "Şəmkir" komandası rəqib komandanı üstələyərək adını yarımfinala yazmağı bacardı. "Beyləqan" və "AAHM" komandaları arasında keçən görüşdə "Beyləqan" komandası rəqibini üstələyərək yarımfinala yüksələn komandalardan biri oldu. Mərhələnin son oyunu "Bakı" və "Bərdə" komandaları arasında keçirildi. Açıq mübarizə



şəraitində keçən oyunda "Bərdə" komandası rəqib komandanı üstələyərək yarımfinal mərhələsinə vəsiqə qazandı.

Yarımfinal mərhələsində üz-üzə gələn komandaların heyətləri ilə tanış olaq:

"HHQ" komandası - kapitan Səfa Səmədov, baş leytenantlar Şəmsəddin Əliyev, Şaban Canıyev, leytenant Beytulla Abdullayev, gizirlər Elvin Abdullayev, Elməddin Məlikov, Sadiq Baxışov; müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları Elxan Quliyev, Kamran Hüseynov, Nicat Süleymanov. Komandanın rəhbəri - kapitan Surac Hüseynov.

"Bərdə" komandası - kapitan Ramin Əhmədov, baş leytenantlar Zaur Səfərli, Şaiq Abbasov, leytenant Mirağa Seyidov, gizir Kamil Musayev, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları Elməddin Qarayev, Süleyman Əzimov, əsgərlər Bəhrəm Qasımov, Miryaqub Qaraxanov, Loğman Şükürov. Komandanın rəhbəri - baş leytenant Elmar Rəhimov.

"Beyləqan" komandası - kapitan Anar Cəfərov, leytenant Samir İsayev, gizirlər Elbrus Xəlilov, Əli Bədəlov, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları çavuş Rüstəm Əliyev, kiçik çavuş Ruslan Mirzəliyev; əsgər Qüdrət Nağıyev, əsgər Şəhram Bünyagirli, əsgərlər Fərhun Tahirli, Nayəddin Alıyev. Komandanın rəhbəri - mayor Zamandar İsmayılov.

"Şəmkir" komandası - leytenant Elçin Fərəcov, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları çavuş Adil İsgəndərov, kiçik çavuş Reşal Ələkbərov; əsgərlər Tural Məmmədov, Elməddin Quliyev, Muxuma Yaqubov, Davud Abdurahmanov, Şamil Allahverdiyev, Tamerlan Musayev, Zaur Kərimov. Komandanın rəhbəri - mayor Zülfüqar Baxışov.



Yarışların yarımfinal mərhələsi də gərgin mübarizə şəraitində keçdi. İlk yarımfinal oyunu "HHQ" və "Şəmkir" komandaları arasında oldu. "HHQ" yarımfinal oyununda qalib olaraq adını finala yazdıran ilk komanda oldu. İkinci finalçı "Beyləqan" və "Bərdə" görüşündən sonra müəyyənləşdi. Rəqibinə qalib gələn "Bərdə" komandası finalda "HHQ"-nin rəqibi oldu. "Şəmkir" və "Beyləqan" komandası üçüncü yer uğrunda oyunda güclərini sınayacaq.

Noyabrın 24-də voleybol üzrə ordu birinciliyinin final mərhələsi və üçüncü yer uğrunda oyunlar həyəcanla gözlənilirdi. Bunun nəticəsi idi ki, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin idman zalına hərbçi idmançılarımızı dəstəkləməyə xeyli insan gəlmişdi. İlk oyun üçüncü yer uğrunda "Şəmkir" və "Beyləqan" komandaları arasında baş tutdu. Bərabər mübarizə şəraitində keçən görüşdə qalib beşinci setdə məlum oldu. "Beyləqan" "Şəmkir" komandasını 3-2 hesabı ilə (28-26, 21-25, 25-14, 23-25, 17-15) məğlub edərək bürünc medala yiyələndi.

Üçüncü yerin sahibinin adı məlum olduqdan sonra meydana finalçılar çıxdılar. "Bərdə" və "HHQ" komandaları turnir çərçivəsində keçirilən görüşlərdə rəqiblərini məğlub edərək finala qədər gəlib çıxmışdılar. Lakin ən güclü bu oyundan sonra məlum oldu. İlk iki setin "Bərdə" komandasının öndə olmasına baxmayaraq (25-14, 25-21), "HHQ" komandası özündə güc tapıb hesabı bərabərləşdirməklə (25-21, 25-23) kifayətlənmədi, son həlledici seti də qalib başa vuraraq (15-11) kuboka və qızıl medala sahib oldu.

Yarış sonrası üçüncü yerin sahibi "Beyləqan" komandasının üzvü kapitan Anar Cəfərov ordu birinciliyi yarışlarında bundan əvvəl də iştirak etdiyini və müxtəlif dərəcəli medallara yiyələndiyini vurğuladı. "2007-ci ildən voleybol üzrə ordumuzda təşkil olunan yarışlarda iştirak edirəm. Nailiyyətlərimin sırasında qızıl və gümüş medallar var. Bu il bürünc medal da əlavə olundu. Belə turnirlərdə hər bir iştirakçı komanda çempion olmaq istəyir. Bu gün yekunlaşan voleybol üzrə ordu birinciliyində "HHQ" komandası rəqiblərindən güclü oldu. Həmkarlarımın hər birini təbrik edirəm."

Gümüş medala yiyələnən "Bərdə" komandasından əsgər Loğman Şükürov xidmət etdiyi birləşməni belə bir mötəbər yarışda təmsil etmənin verdiyi qürurdan danışdı. "Komandamız bu gün gümüş medalın sahibi oldu. Komandada məndən böyük rütbəli şəxslər olmasına baxmayaraq, biz komanda şəklində əsl kollektiv oyun sərgilədik, ikinci yeri tutduq. Finalda iştirak etmək özü də bizim üçün bir uğurdur. Ordu birinciliyi yarışlarında komandamı layiqincə təmsil etdiyim üçün xoşbəxtəm".

Voleybol üzrə ordu birinciliyinin qalibi "HHQ" komandasının rəhbəri kapitan Surac Hüseynov komandası ilə fəxr etdiyini və yarışların dostluq mübarizəsi ilə başladığını və başa çatdığını vurğuladı. "Komandamız bu gün voleybol üzrə ordu birinciliyinin qalibi oldu. Onların hər biri ilə fəxr edirəm. Bu gün bu turnirdə iştirak edən hər bir komandanın uğuru ümumilikdə Azərbaycan Ordusunun uğurudur. Turnir başladığı gündən gərgin və dostluq mübarizəsi altında keçirilən oyunların şahidi olduq. Bu yarışlar mübarizə tələb etsə də, hər birimizin əsas mübarizəsi torpaqlarımızı işğal edən düşmənlədir. Bu yarışlarda ordumuzun zabit, gizir, müddətdən artıq və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları ayrı-ayrı komandalar şəklində mübarizə apardı. Torpaqlarımızı işğaldan döyüş yolu ilə azad edəcəyimiz təqdirdə bir olub düşmənə qarşı döyüşəcəyik".

Yarışların mükafatlandırma və bağlanış mərasimi də Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin idman zalında keçirildi. Mükafatlandırma mərasimində qalib gələn hərbi qulluqçular polkovnik Sadiq Paşayev, polkovnik-leytenant Zöhrab Rəhimov və Qoşqar Əliyev tərəfindən diplom və medallarla təltif edildilər. Birinci yerə layiq görülən komandaya kubok və fəxri fərmanlar təqdim edildi. Beş gün müddətində oyunları idarə edən respublika dərəcəli hakimlər Vüqar Mənsimova, Cəlil Cəlilova, Fuad Əliyevə Müdafiə Nazirliyinin rəhbərliyi adından fəxri fərmanlar təqdim olundu.

**Leytenant**
**Fuad CƏFƏROV,**
**"Azərbaycan Ordusu"**

**Baş redaktor**
polkovnik-leytenant İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant Orxan HÜSEYNLİ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 974
Nüsxə 3525